# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

### “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında

“Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 06 mart tarixli 234-VI FR nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 avqust tarixli 76 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “1” iyul 2024-cü il

№ 47

Naxçıvan Muxtar Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
1 iyul tarixli 47 nömrəli Qərarı
ilə təsdiq edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların**

**S İ Y A H I S I**

1. “Naxçıvanpoçt” publik hüquqi şəxs.

2. Naxçıvan Muxtar Respublikasının İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi.

3. Rayon (şəhər) rabitə idarələri:

3.1. Naxçıvan Şəhər Rabitə İdarəsi;

3.2. Şərur Rayon Rabitə İdarəsi;

3.3. Babək Rayon Rabitə İdarəsi;

3.4. Ordubad Rayon Rabitə İdarəsi;

3.5. Culfa Rayon Rabitə İdarəsi;

3.6. Şahbuz Rayon Rabitə İdarəsi;

3.7. Kəngərli Rayon Rabitə İdarəsi;

3.8. Sədərək Rayon Rabitə İdarəsi.